

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 57 (23.219)

29 mart 2019-cu il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Bakının Nizami rayonundakı ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar martın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə müşavirə keçirilib.

Dövlətimizin başçısı müşavirədə çıxış edib.

Prezident İlham Əliyev deyib ki, martın 26-da ticarət mərkəzlərinin birində yanğın baş verib. Xoşbəxtlikdən insan itkisi olmayıb. Ancaq o ticarət mərkəzində çalışan insanlara maddi ziyan dəyib. Biz sahibkarların problemlərini həll etməliyik. Onlar öz iş yerlərini, öz əmlaklarını itiriblər. Onlara maddi ziyan dəyib. Bəziləri borc alıb və orada malları satışa çıxarıblar. Ona görə, əlbəttə ki, biz bu insanlara dövlət olaraq öz dəstəyimizi göstərəcəyik.

Dövlətimizin başçısı bildirib ki, məsələni tam araşdırıb təklifləri vermək üçün komissiya yaradılacaq. Əlbəttə ki, komissiya bir müddət işləyəcək. Ancaq biz operativ olaraq sahibkarlara ilkin mərhələdə maddi dəstək göstərməliyik ki, onlar bu vəziyyətdən çıxa bilsinlər. Gələcəkdə onları işlə təmin etmək üçün müvafiq addımlar atılacaq.

Sonra yanğının başvermə səbəbləri, əhatə dairəsi və həyata keçirilən təxirəsalınmaz tədbirlər barədə Prezident İlham Əliyevə məlumat verilib.



## 2019-cu ilin yanvar-fevral aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı



Muxtar respublikada 2019-cu ilin yanvar-fevral aylarında 352 milyon 560 min 600 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 0,3 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz artaraq 772,7 manata çatmışdır.

* * *

Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 172 milyon 200 min manat dəyərində məhsul istehsal edilmişdir ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,1 faiz çoxdur.

* * *

Vəsait qoyuluşları çərçivəsində 2019-cu ilin yanvar-fevral aylarında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 73 milyon 180 min manat vəsait yönəldilmişdir. Həmin vəsaitin 69 milyon 850 min manatı və ya 95,4 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

* * *

2019-cu ilin yanvar-fevral aylarında 15 milyon 145 min 600 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur. Bu, 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,3 faiz çoxdur. Həmin dövr ərzində diri çəkidə ət istehsalı 3615 ton, süd istehsalı isə 5141 ton olmuşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 1,6 faiz, süd istehsalı isə 1,5 faiz artmışdır.

* * *

Bəhs olunan dövrdə informasiya və rabitə xidmətlərinin dəyəri 9 milyon 267 min 100 manat olmuşdur ki, bu da 2018-ci ilin müvafiq dövründəki xidmətlərin dəyəri ilə müqayisədə 2,9 faiz çoxdur. Bu dövr ərzində mobil rabitə xidmətinin dəyəri 7 milyon 436 min manat təşkil etmiş və bir il öncəyə nisbətdə 1,5 faiz artmışdır.

* * *

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmış, 2019-cu ilin yanvar-fevral aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 8 milyon 240 min 900 manat məbləğində kreditlər verilmişdir. Həmin kreditlərin 1 milyon 432 min 100 manatı və yaxud 17,4 faizi qısamüddətli, 6 milyon 808 min 800 manatı və yaxud 82,6 faizi uzunmüddətli kreditlər olmuşdur.

* * *

Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində muxtar respublikada 383 növdə məhsul istehsal olunur. Bunun 126 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

* * *

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir.

1 mart 2019-cu il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 80 min 520-yə çatmışdır. Bunun da 70 min 712-si və ya 87,8 faizi aktiv hesablardır. 2019-cu ilin yanvar-fevral aylarında açılmış 3099 bank hesabının 3081-i aktiv hesablar olmuşdur.

Muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1 mart 2019-cu il tarixə 1272-yə çatmışdır.

* * *

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmış, 2019-cu ilin yanvar-fevral aylarında 46 milyon 769 min ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın dəyəri 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə artaraq 36 milyon 823 min 700 ABŞ dolları təşkil etmiş, 26 milyon 878 min 400 ABŞ dolları dəyərində müsbət saldo yaranmışdır.

* * *

2019-cu ilin yanvar ayında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 433,1 manat təşkil etmişdir ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,1 faiz çoxdur.

* * *

1 fevral 2019-cu il tarixə muxtar respublika əhalisinin sayı bir il öncəyə nisbətdə 3,3 min nəfər artaraq 456 min nəfəri ötmüşdür.

**Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti**

## Muxtariyyətin 95 illiyinə həsr olunmuş tədbir keçirilib



*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzində "Muxtariyyət illərində Naxçıvan gəncləri" adlı tədbir keçirilib.*

Tədbiri giriş sözü ilə mərkəzin elmi katibi Emin Məmmədov açaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2019-cu il 21 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı"nın əhəmiyyətini diqqətə çatdırıb.

Bildirilib ki, 1924-cü il fevralın 9-da təşkil edilən Naxçıvan Muxtar Respublikasında bu gün hər bir sahədə inkişafın, tərəqqinin şahidi oluruq. Ulu öndər Heydər Əliyevin siyasi xəttinin davam və inkişaf etdirildiyi muxtar respublikamızda dövlətimizin prioritet istiqamətlərindən biri olan gənclər siyasəti də uğurla həyata keçirilir. Gənclərin potensialından istifadə olunması, onların sosial müdafiəsinin, vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, asudə vaxtlarının səmərəli təşkili və sağlam həyat tərzinin təbliği daim diqqət mərkəzində saxlanılan məsələlərdəndir.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin şöbə müdiri Tahir Məmmədli "Naxçıvanda gənclər siyasəti", Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun əməkdaşı Ceyhun Xəlilli "Muxtariyyət və gənclik" mövzularında çıxış ediblər.

Vurğulanıb ki, dövlətimiz tərəfindən gənclərə göstərilən diqqət və qayğının nəticəsində bu gün onlar muxtar respublikanın ictimai-siyasi, iqtisadi-mədəni həyatında fəal iştirak edir, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə irəli çəkilir, onların xidmətləri qiymətləndirilir. Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun yaradılması, Naxçıvan şəhərində Gənclər Mərkəzinin istifadəyə verilməsi isə gənclərin xüsusi layihələr vasitəsilə vahid bir məkanda toplanması, onların asudə vaxtlarının səmərəli təşkili baxımından xüsusi əhəmiyyət kəsb edir. Ötən il Naxçıvan şəhərinin ölkəmizin Gənclər Paytaxtı statusunu uğurla daşıması bir daha sübut etdi ki, muxtar respublikamızda Naxçıvan gəncliyinin ictimai-siyasi həyatın bütün sferalarında aktiv fəaliyyət göstərməsi, öz innovativ potensialını, intellekt və istedadını ortaya qoyması üçün geniş imkanlar vardır.

Sonda tədbir iştirakçıları muxtariyyətlə bağlı sərgi ilə tanış olublar.

**Güntac ŞAHMƏMMƏDLİ**

## Ordubad rayonunda quruculuq ünvanlarının sayı artmaqdadır

*Son illər muxtar respublikamızın hər yerində olduğu kimi, Ordubad rayonunda da kompleks tikinti-quruculuq işləri aparılıb.*





Hazırda Ordubad Rayon İcra Hakimiyyətinin və şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binalarında əsaslı təmir və yenidənqurma işləri yekunlaşmaq üzrədir. Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sifarişilə "Gəmiqaya Holdinq"in inşaatçılarının gözəl dizaynı ilə binaların daxili və ətrafı əsaslı surətdə yenidən qurulub.

Ordubad şəhərində digər quruculuq ünvanı isə yeni yaşayış binasıdır. Zirzəmi ilə birlikdə 8 mərtəbəli olacaq bu binada 28 mənzil istifadəyə veriləcək. Binanın tikintisini Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Ordubad Rayon İdarəsinin inşaatçıları həyata keçirirlər. Binanın zirzəmisinin dəmir-beton işləri tamamlanıb, birinci mərtəbədə isə həmin işlər davam etdirilməkdədir.

Ordubad rayonunda digər bir quruculuq ünvanı isə Vənənd kəndidir. Rayonun ən iri yaşayış məntəqəsi olan bu kənddəki köhnə məktəb binası əsaslı surətdə yenidən qurulur, yaşayış məntəqəsində həkim ambulatoriyası, musiqi məktəbi, kənd və xidmət mərkəzləri üçün binalar inşa olunmaqdadır.

Culfa-Ordubad magistral yolunun Dəstə-Ordubad istiqamətindəki hissəsində isə Ordubad Su Elektrik Stansiyası üçün kanal çəkilişi ilə əlaqədar yeni avtomobil yolu salınır.

**Abbas SEYİD**

# Heç vaxt sönməyəcək işıq

## *Ulu öndərin adını daşıyan qəsəbə düşmənə gözdağıdır*




***“Sədərək həmişə bizim, Azərbaycanın ən kənar yerində, sərhəddə yerləşərək Azərbaycan torpaqlarını qorumuş, saxlamış və mərdlik nümunələri göstərmişdir. Mən indi qəsəbəni bu cür görəndə həddindən artıq sevinirəm. Çünki sizin, yəqin ki, xatirinizdədir, vaxtilə, 1977-ci illərdə mən Azərbaycanın başçısı olduğum zaman kənddən aralı bu qəsəbənin salınması haqqında qərar verdim. Nə üçün kənddən aralı? Ona görə ki, o vaxtlar ermənilər yavaş-yavaş bu torpaqlara iddia edir, bu bizimdir, o bizimdir deyirdilər. Mənim yadımdadır, burada bir Həsənqulu bağı vardı... Guya ki, o bağ onlarındır. Sonra mən 1990-cı ildə buraya gələndə bu məsələlərlə məşğul olmuşam. O vaxt mən bunları hiss edirdim. Ona görə mən belə qərara gəldim ki, burada Azərbaycana Naxçıvan tərəfdən giriş yerində müasirtipli evlər tikək ki, Ermənistanın ərazisindən buraya keçənlər, – yadınızdadırsa, o vaxt gediş-gəliş çox idi, turistlər də gedib-gəlirdi, sovet vaxtı başqaları da gedib-gəlirdi, – onlar görsünlər ki, Azərbaycan torpağında indi yaşayış necədir. Ona görə mən burada o vaxt bu qəsəbəni salmaq barədə göstəriş verdim”.*** *Bu sözləri ümummilli lider Heydər Əliyev 17 il bundan əvvəl – 14 avqust 2002-ci il tarixdə Sədərək rayonunun sakinləri ilə görüşdəki çıxışında deyib.*

Bəli, ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində 1990-cı il avqust ayının 28-də Sədərək kəndinin bazasında Sədərək rayonu yaradıldı. Bölgənin inkişafı, infrastrukturunun gücləndirilməsi məqsədilə mühüm tədbirlər həyata keçirildi. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Sədərək rayonunun sosial-iqtisadi inkişafı haqqında” 2000-ci il 15 mart tarixli Sərəncamına əsasən bu istiqamətdə böyükhəcmli layihələr reallaşdırıldı, rayon özünün inkişaf və tərəqqi yoluna qədəm qoydu. Yeri gəlmişkən onu da vurğulayaq ki, ölkə Prezidenti cənab İlham Əliyev 2010-cu ilin oktyabr ayında muxtar respublikaya səfəri zamanı Sədərək rayonunda da olub. Bir neçə obyektin, o cümlədən yenidən qurulmuş Heydərabad qəsəbəsinin açılışında iştirak edib, ikimərtəbəli 16 fərdi yaşayış binası da həmin gün istifadəyə verilib. Dövlət başçısı qəsəbə sakinlərini təbrik edərək deyib: ***“... Gözəl evlər, binalar tikilib. Qəsəbə yeni dövrə qədəm qoyur. Bütün işlər ən müasir səviyyədə görülübdür. Çox şadam ki, respublika rəhbərliyi bütün bu işləri qısa müddət ərzində çox böyük keyfiyyətlə gördü. Bu, doğrudan da, böyük hadisədir. Heydərabad qəsəbəsinin Azərbaycan tarixində çox mühüm yeri vardır”.***

Bu, doğrudan da, belədir. Naxçıvanın coğrafi mövqeyi onun tarixi taleyinə bir çox yaşayış məntəqələrində erməni adlı mənfur düşmənlə qonşuluq qisməti yazıb. Yüz illər boyu özlərinin çirkin əməllərini gah gizlin, gah da aşkarda həyata keçirən daşnakların 1988-ci ildə yenidən üzə çıxan əsassız torpaq iddiaları, bu iddiaların yaratdığı məlum hadisələr sərhəd yaşayış məntəqələri sakinlərinin sərhədçi ömrü yaşamaları ilə nəticələndi. Ata-baba əmanəti olan torpaqlarımızın qorunması, düşmən tapdağına çevrilməməsi üçün bütün Azərbaycan ayağa qalxdı, o ağır illərdə belə, yurd yerlərimiz qəhrəmanlıqla qorundu, “Torpaq – uğrunda ölən varsa, Vətəndir”, – deyib səngərlərə atılaraq “Təki Vətən sağ olsun” amalı ilə ölümün gözünə dik baxdı eloğullarımız. Bu mücadilədə sağlamlığını itirən, öz ev-eşiyinə qazi kimi qayıdanlar da az olmadı. Yüzlərlə igidimiz isə şəhidlik zirvəsinə ucaldı.

Onların ruhu qarşısında baş əyən naxçıvanlılar bu gün muxtar respublikada bərqərar edilmiş ictimai-siyasi sabitlik, əmin-amanlıq, yenidənqurma prosesləri fonunda həyata keçirilən tədbirləri ürəkdən dəstəkləyir, bu tədbirlərdə fəallıq göstərirlər. Bunun ifadəsidir ki, doğma muxtar diyarımız, onun bütün bölgələri müasirlik donundadır. Ulu öndərimizin adını daşıyan qəsəbənin bu sırada öz yeri var. Son illərdə də qəsəbədə davam etdirilən quruculuq işləri rayon mərkəzini xeyli gözəlləşdirib, düşmənə gözdağına çevirib.

Heydərabad qəsəbəsi ilə bağlı yazı hazırlamaq barədə düşünərkən hələ 2003-cü ildə qəzetimizin yaradıcı heyətinin sərhəd bölgəsinin sakinləri ilə görüşünü xatırladım. Heydərabad qəsəbəsində – rayon İcra Hakimiyyətinin binasında təşkil edilən tədbirdə bu sərhəd bölgəsinə göstərilən dövlət qayğısından xeyli söhbət açıldı. Bu qayğıdan rayon mərkəzinə də xeyli pay düşdüyü vurğulandı. O görüşdən artıq 16 il keçir. Bu dövrdə dəfələrlə rayonda olmuşam, digər yaşayış məntəqələri ilə yanaşı, qəsəbənin də saatbasaat, günbəgün dəyişdiyini görmüşəm.

Bu yaz günlərinin birində yenə də qəsəbədə qaynar həyat gördüm. İnsanlarla görüşdüm. İlk həmsöhbətim rayon qəzetinin redaktoru Sərxan İsmayılov oldu. Onun dediklərindən: – Bölgə sakinləri qəsəbədə həyata keçirilən layihələri insan amilinə göstərilən yüksək qayğı kimi dəyərləndirirlər. Ötən dövrdə rayon mərkəzi Heydərabadda böyük dövlət qayğısının ifadəsi kimi həyata keçirilən kompleks quruculuq tədbirləri düşmənin bir addımlığında mərdi-mərdanə dayanan bu sərhəd yaşayış məntəqəsinə müasirlik gətirib. Bu gün rayonda elə bir idarə, müəssisə və təşkilat yoxdur ki, fəaliyyətini müasir tələblərə cavab verən yeni binada davam etdirməsin. 2230 sakinin yaşadığı qəsəbənin ərazisi 8,4 kvadratkilometrdir.



Burada qəsəbə tam orta məktəbi, 3 məktəbdənkənar müəssisə, həkim ambulatoriyası, uşaq bağçası, şahmat məktəbi, seysmoloji stansiya, Tarix-Diyarşünaslıq Muzeyi, 23 dövlət müəssisəsi fəaliyyət göstərir. Ümumilikdə isə qəsəbə ərazisində 110 ictimai yaşayış və inzibati bina öz müasir görkəmi ilə buraya gələnlərdə yüksək təəssürat yaradır. Binaların hər biri gülkarlıqlarla əhatə olunub. Gülkarlıqlara daimi su xətləri çəkilib. Bu, gecə vaxtlarında qəsəbənin daha gözəl, daha cazibədar görünməsinə imkan verib. Müasir işıqlandırma sisteminin qurulması qəsəbəni, sözün həqiqi mənasında, işıqlı bir yurd yerinə çevirib. Obrazlı şəkildə desək, bu işığın şölələri hər bir qəsəbə sakininin yolunu işıqlandırmaqdadır. Biz də o işığın fonunda qəsəbəni gəzdik, bəzi təşkilatlarda olduq.

Bu, qəsəbə tam orta məktəbidir. 635 şagird yerlik məktəb qəsəbənin gələcək perspektivləri nəzərə alınaraq inşa edilib. Hazırda burada 61 şagird təhsil alır. Müqayisə aparmağa ehtiyac yoxdur. Təhsil ocağı bütün müasir informasiya-kommunikasiya texnologiyaları ilə təchiz olunub. Məktəbin direktor müavini Zakir Zamanov söhbətinə bir qədər keçmişdən başlayır: – O illəri yaxşı xatırlayıram. Və bu gün dərs dediyim şagirdlərə aşılamağa çalışıram ki, bizim mübarizəmiz haqq işidir. Haqq işi isə həmişə qalib gəlib. Ona görə də yaşadığımız və tariximizə yazılan hadisələrlə bağlı dərs prosesində, məktəbdənkənar və sinifdənxaric məşğələlərdə söhbətlər aparırıq, inşa yazı və rəsm müsabiqələri keçiririk. Onu da qeyd edim ki, aidiyyəti fənlərin proqramlarında da bu mövzuya kifayət qədər yer ayrılıb. Hansı fənni tədris etməsindən asılı olmayaraq, bu gün məktəbin bütün müəllimləri bu işdə fəallıq göstərirlər. Əsas diqqət yönəltdiyimiz məsələlərdən biri də düşmənlə bir addımlığımızda yaşayan qəsəbə şagirdlərini onlara qarşı nifrət, dövlətimizə, dövlətçiliyimizə, müstəqilliyimizə sədaqət ruhunda tərbiyə edək. Qəsəbədə yaradılanların məhz bugünkü və sabahkı gənclik üçün olduğunu, onları qorumağın vacibliyini başa salırıq ki, sərhəd bölgəsinin uşaqları dövlətimizin bizə hərtərəfli qayğı göstərdiyini yaddan çıxarmasınlar.

Müəllimlər söhbətə qoşularaq Heydərabad qəsəbəsinin bu günündən, müxtəlif sahələrə göstərilən xidmətlərdən danışırlar, yaşadıqları yurd yerində görülən işləri dəyərincə qiymətləndirirlər. Vəfa İsmayılova qəsəbədə əhalinin məşğulluğu, insanların sosial müdafiəsi, ahılların, məhdud fiziki imkanlıların həyat şəraitinin yaxşılaşdırılması istiqamətində görülən tədbirlərdən, bu məqsədlə aidiyyəti qurumlara yaradılmış şəraitdən danışaraq razılığını bildirir.

Qəsəbədəki park sakinlərin ən sevimli istirahət guşəsidir. Parkda qəsəbə sakini Taleh Heydərovla görüşürük. Deyir ki, bu park, bu qəsəbə sərhədçi ömrü yaşayan sakinlərə böyük dövlət qayğısının ifadəsidir. Belə qayğının davamlı xarakter alması Heydərabada qaynar həyat bəxş edib. Bu gün hər bir qəsəbə sakini heç nədən çəkinmədən qurur, yaradır. Çünki arxasında güclü dövlətin və ordunun dayandığını bilir. Bunları mənfur qonşular da görür. Naxçıvanın belə inkişafı isə düşmənə ən böyük zərbə və cavabdır.



Sürücü Elçin Abdullayev düşmənlə üz-üzə dayanan əsgərlərlə qurulmuş sıx əlaqələrdən danışır. Deyir ki, onlar bizə arxadırlar, biz onlara. Tez-tez görüşürük. Bayramlarda, əlamətdar günlərdə, məhsul yığımlarında onlara sovqatlar aparırıq. Rayonun musiqi kollektivləri tez-tez sərhədçilərin qonağı olur. Bütün bunlar isə onlarda yüksək ovqat yaradır. Bu ovqatla istənilən anda düşmənə qalib gəlmək olar və igid eloğullarımız da bu arzu ilə yaşayırlar.

**Heydərabada göstərilən hərtərəfli dövlət qayğısı təkcə naxçıvanlıları deyil, hər bir azərbaycanlını ürəkdən sevindirir. Çünki Vətən sərhəddən başlayır. Heydərabad da bu sərhədin bir hissəsidir. Yadıma şair Asim Yadigarın bu misraları düşür:**

*Öndərimin adından ad alan Heydərabad*
*Necə gözəlləşibdi, necə olubdu abad.*
*Düşmən bağrı çatladan Sədərək adlı bu yurd*
*Keçilməz sərhədimiz, alınmaz qalamızdır,*
*Susmayan cəngimizdir, gurlayan sədamızdır.*

**Bu gün bu keçilməz sərhəd bölgəmizin qovuşduğu işıqlı həyat tərzi ulu öndər Heydər Əliyev ideyalarının reallaşdırılması hesabına mümkün olub... Bu işığın ziyası sərhəd bölgəsinin mərkəzi Heydərabad qəsəbəsində də heç vaxt sönməyəcək, daim yanacaq, qəsəbə sakinlərinin yollarını işıqlandıracaq.**

**Muxtar MƏMMƏDOV**

# Vergi Məcəlləsinə edilən dəyişikliklər sahibkarlığın inkişafına təkan verir

*Məlum olduğu kimi, vergi qanunvericiliyində edilən dəyişikliklər son vaxtlar sahibkarlar və ictimaiyyət arasında geniş müzakirə mövzusuna çevrilib. Vergi sahəsində aparılan islahatlar əhalinin sosial rifah halının daha da yaxşılaşdırılmasına xidmət edən mühüm dövlət siyasəti kimi qiymətləndirilir. 2019-cu il yanvarın 1-dən etibarən qüvvəyə minən yeni qanunlar sahibkarların da fəaliyyətinə müsbət təsir göstərib. Bu barədə mütəxəssis rəyini öyrənmək məqsədilə Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət şöbəsinin rəisi Zahid Qənbərova müraciət etdik.*

Onun sözlərinə görə, ümumilikdə, Vergi Məcəlləsinə 240-dan artıq əlavə və dəyişiklik edilib. Məcəllədə edilən mütərəqqi dəyişikliklər məhz özəl sektorun, xüsusilə də mikrosahibkarlıq sahələrinin inkişafına təkan verməkdədir. Mikrobiznesə 1-dən 10-a kimi işçinin çalışdığı və illik gəlirləri 200 min manatdan çox olmayan müəssisələr və fərdi sahibkarlar aiddir. Bu kateqoriyadan olan vergi ödəyiciləri vergi ilə bağlı müəyyən güzəştlər əldə ediblər. Belə ki, daxil olan gəlirlərin 75 faizi vergidən azad edilib. Sahibkarın yalnız yerdə qalan 25 faiz gəlirindən 20 faiz vergi tutulmağa başlanılıb.

Nazirliyin əməkdaşı digər bir yenilik haqqında da məlumat verərək bildirdi ki, neft-qaz sahəsində fəaliyyəti olmayan və özəl sektorda çalışan və aylıq gəlirləri səkkiz min manatdan aşağı olan işçilərin yeddi il müddətinə gəlir vergisindən azad edilməsi böyük bir dəyişiklikdir. Aylıq gəliri qeyd edilən məbləğdən yuxarı olan vergi ödəyiciləri üçün vergi 14 faiz səviyyəsində təsbit olunubdur.

Məcburi dövlət sosial sığortası haqqındakı yeniliklərdən də danışan Zahid Qənbərov əmək müqaviləsi əsasında işləyən işçilərin məcburi dövlət sosial sığortası üzrə ödənişlərinin əsas yükünün əvvəllər sahibkarların üzərinə düşdüyünü söylədi: “Bu məsələ də diqqətdən kənarda qalmayıb. Belə ki, dəyişikliklərə əsasən işçinin aylıq əməkhaqqı 200 manat təşkil edəcəyi halda, məcburi dövlət sosial sığorta ayırmaları əvvəlki səviyyədə qalır: maaşının 3 faizini işçi, 22 faizini işəgötürən ödəyir. Ancaq işçinin aldığı əməkhaqqı 200 manatdan çox olarsa, o zaman işçi 6 manat və 200 manatdan artıq məbləğin 10 faizi miqdarında sosial sığortahaqqı ödəməlidir. Bu halda işəgötürən 44 manat və 200 manatdan artıq məbləğin 15 faizi miqdarında sığortahaqqı ödəyəcək”.

Bütün bu güzəştlər və azadolmalarla bağlı sahibkarların da fikirlərini öyrəndik. “Karton Tara” Məhdud Məsuliyyətli Cəmiyyətinin müdiri Samiddin Məmmədov qeyd edir ki, müəssisədə 9 işçi çalışır. Əvvəllər işçilər öz gəlirlərinin 14 faizi miqdarında gəlir vergisi verirdilərsə, yeni dəyişikliklərdən sonra onlar bu vergidən azad olduqları üçün əməkhaqlarında da müəyyən artım baş verib. Həmçinin işçilər də qeyd etdi ki, bu, çox sevindirici haldır və dövlətin vətəndaşa göstərdiyi diqqət və qayğının nümunəsidir.

Elektrik xətlərinin çəkilişi ilə məşğul olan fərdi sahibkar Əfqan Abbasov kiçik sahibkarlıq subyektlərinə edilən güzəştlərdən yararlandığını deyərək bildirir ki, artıq ümumi gəlirlərinə 5 faiz miqdarında vergi ödəyir.

Kolbasa və kolbasa məmulatlarının istehsalı ilə məşğul olan fərdi sahibkar Ziyafəddin Məmmədov əvvəllər müəssisədə işləyən işçilərin məcburi dövlət sosial sığortası üzrə ödəmələrin əsas yükünün sahibkarın üzərinə düşdüyünü qeyd edərək nəzərə çatdırdı ki, indi bu ödəmələr sahibkar və işçi arasında tarazlaşdırılıb. Sahibkar işçinin işəgötürən tərəfindən ödənilən məcburi dövlət sosial sığorta ödənişlərinin 22 faizdən 15 faizə endirilməsindən də razılıq və minnətdarlıqla danışdı.

Apardığımız kiçik sorğudan da aydın oldu ki, ölkəmizdə həyata keçirilən son vergi islahatları, Vergi Məcəlləsində edilən dəyişikliklər sahibkarlığın inkişafına dəstək olmaqla yanaşı, kölgə iqtisadiyyatının aradan qaldırılması, qeyri-rəsmi məşğulluğun qarşısının alınması və işçilərin gələcəkdə pensiya təminatının yaxşılaşdırılması məqsədi daşıyır.

***Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin mətbuat xidməti***

*Türkiyə Dağçılıq Federasiyasının 13 nəfər üzvü Xocalı soyqırımının ildönümü münasibətilə bu il fevralın 25-də Haçadağa yürüş etmişdir. Qrup üzvlərindən həvəskar dağçı Səlma Güvən ölkəsinə qayıtdıqdan sonra guncelkadin.com.tr saytında "Zamanın durdurulduğu Qaf Dağı ölkəsi... Naxçıvan Muxtar Respublikası" sərlövhəli məqalə yazmışdır. Həmin məqaləni təqdim edirik.*

## Zamanın durdurulduğu Qaf Dağı ölkəsi... Naxçıvan Muxtar Respublikası



Bugünkü yazımda sizə Naxçıvandan səslənirəm. Paytaxtı Naxçıvan şəhəri olan Naxçıvan Muxtar Respublikası Şərur, Babək, Ordubad, Culfa, Kəngərli, Şahbuz və Sədərək rayonlarından ibarətdir. Naxçıvan ilə Türkiyə arasındakı quru yol Türkiyə tərəfindən İqdır-Dilucu, Naxçıvan tərəfindən isə Sədərək gömrük-keçid məntəqəsi ilə həyata keçirilir. Həmçinin həftənin üç günü Naxçıvan-İstanbul-Naxçıvan təyyarə reysləri olur.

Sahəsi 5,5 min kvadratkilometr olan Naxçıvan Muxtar Respublikası Azərbaycan ərazisinin 6,3 faizini əhatə edir. Demək olar ki, dağlıq quruluşa malikdir. Zəngin mineral suları və duz mədənləri vardır.

Naxçıvan səfərim son anda qərar verdiyim bir dağçılıq turu idi. Məqsədimiz Naxçıvanda müqəddəs hesab edilən və Nuhun gəmisinin toxunduğu Haçadağa dırmanmaq və Xocalı şəhidlərini anmaq idi. Ötən il getmədiyim üçün bu arzu ürəyimdə qalmışdı.

Böyük Atatürkün "Türk qapısı" adlandırdığı Naxçıvan Türkiyə ilə digər türk dövlətləri arasında əlaqə yaradan körpüdür. Türkiyə ilə 14 kilometr sərhədi var. Sərhədi təşkil edən torpaq İstiqlal savaşında Mustafa Kamal Atatürk tərəfindən qızıl pul verilərək İrandan alınmışdır.

Haçadağın mənim üçün mənəvi dəyəri böyükdür. Türkiyə Dağçılıq Federasiyasının üzvləri ilə birlikdə İqdırda görüşdük və Naxçıvana keçmək üçün toplaşdıq. İçim-içimə sığmırdı. Türkiyənin müxtəlif bölgələrindən gəlmiş 12 dağçı ilə yola düşdük. Qrupda iki qadın idik.

Yanımızda Naxçıvanı yaxşı tanıyan yoldaşımız vardı. Vaxtımız olmadığı üçün Naxçıvana iki gün ayırmışdıq. Birinci gün mədəni tur olacaq, ikinci gün isə Haçadağın zirvəsinə qalxacaqdıq. Qrupla birlikdə ilk getdiyimiz yer Duzdağ oldu. Duzdan ibarət bir dağın içərisindəki tunelə irəliləyirdik. Dağın 180 metr altında astma-bronxit və digər tənəffüs yolu xəstəliklərinin müalicəsi üçün fizioterapiya mərkəzi fəaliyyət göstərir. Naxçıvandakı sakitliyin və hörmətin əsas götürüldüyü yaşam mədəniyyətinin ilk əlamətlərini də elə burada hiss etdik.



Duzdağla tanışlıqdan sonra Naxçıvan şəhərinə yola düşdük. Geniş çölün ortasında müasir bir orta əsr ölkəsi yüksəlirdi. İlk görünüşdə heyran qaldığımız bir nizam vardı burda. Geniş küçələrində yol kənarlarında avtomobillər saxlanılmamışdı. Bir ölkə düşünün ki, şəhər mərkəzində dörd şəridli yolları, az sayda işıqforları olsun. Hərəkətdə piyadalara üstünlük verilsin. İnsanlar sakit təbiətli olsun. Qışqırıb səs-küy salan bir yana, yüksəkdən danışaraq ətrafdakıları narahat edən insan belə, olmasın. Çox mədəni sakinləri var Naxçıvanın. İçimdən "Mədəniyyət başqa bir aləmdir" demək keçdi.

Geniş küçələrdən keçərək "Qrand" otelə gəldik. Burada da bizi qarşılayan personal çox sakit təbiətli və hörmətcil idi.

Səfərimizin məqsədini öyrənən hər kəs fərqli bir qonaqpərvərlik göstərirdi bizə. İlk diqqətimi çəkən detal bizdəki kimi hər qarış torpaq parçasında bina tikən betonçu zehniyyətin burada olmaması idi. Əksinə, binalar arasında o qədər məsafə var ki, bəzən yürüş etmək lazım gəlirdi. Yaşayış yerləri, dövlət idarələri, sosial binalar və ticarət mərkəzləri ayrı-ayrılıqda, nizamla yerləşir. Bizdəki kimi çörək sexinin, qaz balonu satan dükanların üstündə mənzillər yoxdu. Mədəniyyət, nizam-intizam, sənət binalardan tutmuş həyat tərzinə, düşüncələrə qədər hakimdir.




Qaldığımız otel Heydər Əliyev Sarayının yaxınlığında yerləşirdi. Saray isə şəhər mərkəzindədir. Lakin nə yüksək həyət divarları, nə ümumi giriş qapısı, nə də mühafizəçiləri vardı. Ali Məclisin və nazirliklərin binaları da şəhərin mərkəzində yerləşir. Dövlət xalqın içindədir. Dövlət dairələri xalq ilə arasına divar hörməyib. Sənaye mərkəzini gördük. Ümumi girişi və uca divarları ilə bizdəki sarayları xatırladırdı. Bir anda gözlərim önünə bizim sənaye şəhərcikləri gəldi. Həqiqətən, bir dövlətdə yaşamaq da, idarə etmək də böyük səriştə tələb edir. Təmizliyin və sakitçiliyin hakim olduğu Naxçıvan kimi. İnsan düşüncələrini saxlaya bilmir: "Biz bu səviyyəyə gələ bilmək üçün nə etməliyik?"

Proqramımızdakı muzeyləri gəzməyə başladıq. İlk ziyarət etdiyimiz yer Nuh Peyğəmbərin türbəsi oldu. Naxçıvanda hər muzeydə bələdçi var. Gələn qonaqlara muzey haqqında geniş məlumat verirlər. Naxçıvan adını Nuh tufanından alır. Məna olaraq Naxçıvan "Nuh çıxan" deməkdir. Naxçıvanqalanın yaxınlığında yerləşən Nuh türbəsindən gəminin toxunaraq haça yaratdığı Haçadağ görünür. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Nuhun gəmisinin dayandığı Gəmiqayada arxeoloji araşdırmaların aparılması üçün sərəncam imzalamış, araşdırmalar aparılmışdır. Məhz Nuhun məzarüstü türbəsi də Ali Məclis Sədrinin sərəncamı ilə bərpa olunmuş, içərisində Gəmiqayada aparılan araşdırmaların nəticəsi olan əsərlər, fotoşəkillər qoyulmuşdur.

Türbənin yaxınlığındakı Naxçıvanqala 632-652-ci illərdə inşa edilmişdir. Övliya Çələbinin qeydlərinə görə, monqol istilasına məruz qalmışdır. Qalanın içərisində 300 əsgərin qala biləcəyi sığınacaq var. Bu sığınacaqdan Araz çayına qədər yeraltı tunelin olduğu söylənilir. Qalanı gəzərkən Orta Asiya türk mədəniyyətinin nümunəsi olan daş qoç heykəlləri də gördük. Anadoludakı, Orta Asiyadakı və Azərbaycandakı daş qoç heykəllərin eyni olması bizi bir "mədəniyyət körpüsü" ilə birləşdirir. Eyni daş qoç heykəllər Bitlisdəki Səlcuqlu qəbiristanlığında da vardır. Şəhər mərkəzindəki Açıq Səma Altındakı Muzeydə də daş qoç heykəllər vardı.

Açıq Səma Altındakı Muzeyi ziyarət etdikdən sonra Möminə xatın türbəsində olduq. Möminə xatın türbəsi 12-ci əsrdə Atabəylər dövlətini quran Şəmsəddin Eldənizin paytaxt Naxçıvan şəhərində həyat yoldaşı Möminə xatın üçün inşa etdirdiyi memarlıq əsəridir. Orta əsr memarlıq sənətinin görkəmli nümayəndəsi memar Əcəmi Naxçıvani tərəfindən inşa edilmişdir. Vaxtilə türbənin yaxınlığında ikiminarəli məscid və tac qapı da olmuşdur. Üzərindəki naxışlarda Qurandan ayələr yazılmışdır. Burada muzey bələdçisindən Anadolu Agentliyi üçün reportaj da aldım.

Naxçıvan gecələri də çox işıqlı idi. Bütün binalar rəngarəng işıqlarla bəzədilmişdir. Küllərin içindən yenidən qurulan bir ölkə sanki gələcəyə meydan oxuyurdu.

## Unutmayaq, unutdurmayaq...

*Tarix özündə şanlı qələbələri, zəfərləri, sevinci əks etdirdiyi kimi, öz dəhşəti ilə insanlıq arxivinin ağ vərəqlərinə yazılan günahını da əsrlərin o tayına daşıya bilir. Əslində, tarix heç nəyi unutmur. Bu tarix səhifəsində xalqlar var ki, mətinliyi, mübarizliyi, şanlı zəfərləri, ədalətli mübarizəsi ilə yadda qalır. Elə toplumlar da var ki, yaltaqlıqları, məkrli planları, hərisliyi, insanlığa yaraşmaz iddiaları ilə seçilirlər. Ötən iki əsr ərzində Qafqazda baş verən hadisələrə nəzər salmaq kifayətdir ki, öz çirkin planları ilə bütün regionu müharibə ocağına çevirən mənfur ermənilərin belə olduğunu bir daha görək.*

Azərbaycan xalqı həmişə xalqların dostluğuna, qonşuluğa inanıb, amma erməni daşnakları bu inamı hələ ötən əsrin əvvəlindən başlayaraq qırmağa çalışıblar. Öz himayədarlarının köməyi ilə azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti güdən ermənilər 1918-ci il 31 mart tarixini əliyalın xalqa qarşı insanlığa yaraşmayan mübarizə yolu seçdi. Bəli, məhz bu gün – 31 mart tarix və insanlıq üçün unudulmazdır. İki əsr ərzində Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə məruz qalmışdır. Bu mənfur siyasətin məqsədi Azərbaycan torpaqlarının böyük bir qismini ələ keçirmək, azərbaycanlıları ata-baba torpaqlarından sıxışdırıb çıxarmaq, sonra həmin ərazilərdə "böyük Ermənistan" dövləti yaratmaq idi.

Erməni quldurları Bakıdakı milli qırğınla kifayətlənməyib 1918-ci ilin yazında Şamaxıda, Quba-Xaçmaz bölgəsində, Salyanda, Lənkəranda və başqa yerlərdə də azərbaycanlılara qarşı soyqırımı törədiblər. Bu illərdə Naxçıvana yiyələnmək üçün daşnaklar yerli əhaliyə qarşı vəhşiliklər törədir, onları öldürür, yaşayış məntəqələrini yandırır və ərazini azərbaycanlılardan boşaltmağa çalışırdılar. 1918-ci ildə Naxçıvanda ən dəhşətli vəhşiliklər törədənlər içərisində Andranik Ozanyan xüsusi yer tuturdu. Bu qaniçən cəllad təkcə Gilançay və Əlincəçay vadilərində 62 kəndi viran qoyub, əhalisini isə amansızlıqla qətlə yetirib. Bu gün "milli qəhrəman" kimi İrəvanda heykəli ucaldılan Qaragin Njde Ərəzin, Camaldın, Yaycı, Azadkənd, Sabirkənd, Düylün, Vənənd, Dəstə və Kotam yaşayış məntəqələrini dağıdıb, əhaliyə divan tuturdu. Həmin dövrdə Naxçıvanda fəaliyyət göstərmiş Müsəlman Milli Komitəsinin katibi işləmiş Mirzə Bağır Əliyev hadisələrin, ermənilərin vəhşiliklərinin bilavasitə şahidi olub və onları qələmə alıb. Onun "Qanlı günlərimiz" əsərindən – gündəlik qeydlərindən aydın olur ki, 1918-1921-ci illərdə Naxçıvanda ermənilər tərəfindən 74 min azərbaycanlı ən vəhşi üsullarla öldürülüb.

Hamımız müxtəlif tarix kitablarını oxumuşuq, sənədli filmlərə baxmışıq, ancaq 1918-ci ildə baş vermiş hadisələr qədər amansız, xüsusi qəddarlıqla törədilmiş soyqırımına çox az-az rast gəlinir. Gəlin bir anlıq da olsa, özümüzü həmin hadisələrin mərkəzində təsəvvür edək...

Əliyalın xalqa qarşı təpədən-dırnağadək silahlanmış quldurlar kəndə soxulurlar. Heç kimin bu hücumdan xəbəri yoxdur. Kəndin gündəlik ahəngini ilk silah səsi pozur, hələ heç kim nə olduğunu dərk etmir. Bir neçə dəqiqədən sonra evlər yandırılır, anaların fəryad səsləri ərşə ucalır, uşaqlar ağlayır, igid oğullar silah olmadığı üçün əllərinə keçən balta, şana, bıçaq ilə düşmən üzərinə atılırlar. Düşünün, yanan evləri, fəryadları, köməksiz körpələri viran qalmış yurdu düşünün...

Mən bunları düşünərkən Babək rayonunun Məzrə kəndində yaşayan nənəm Gülüstan Qurbanovanın nəql etdikləri qulağımda cingildəyirdi. Elə bu gün də həmin canlı tarixi bir daha vərəqləmək üçün əyləşdim nənəmin yanında.

"Diqqətlə qulaq as, oğul, bu, başımıza gələnlərdir. Mən özüm yaşamasam da, atamın yanğı ilə bəhs etdiyi 31 martdan danışacam sənə. Kişilər daha mərdanə olar, hər şeyi qadın yanında danışmazlar. Ən çoxunu bibimdən eşitmişəm. 1918-ci ilin bahar idi. Məzrə kəndində hamının başı öz gündəlik işlərinə qarışmışdı. Birdən bu sakitlik qonşu kənddən qaçan insanların fəryadları ilə pozuldu. Onlar dedilər ki, erməni daşnakları kəndə hücum ediblər. Qaçan insanları bizə də kənddən çıxmağı məsləhət gördülər. Nənəm də mənim atama deyib ki, qaç atana xəbər ver, çünki nənəmin körpə uşağı vardı. O, tək heç bir yerə gedə bilməzdi. Mənim atam Vəli Muradovun o vaxt 14-15 yaşı olardı. Atam babam Dünyamalı Muradovun yanına qaçır ki, xəbər versin, gəlib nənəmi qurtarsınlar. Atam yolda min bir zülmlə babamın yanına gedib çıxır. Onlar bir yerdə kəndə qayıdırlar (kövrəldiyi üçün sözünə davam edə bilmir. Ovcumun içində olan əllərini bərk-bərk sıxaraq özündə güc toplayır və davam edir). "Eh, bala, atamla babam evimizə çatanda gördükləri mənzərəni xatırlayıb danışmaq çox çətindir. Elə bir mənzərə ilə üzüzə dayanmaq hər insanın işi deyil, oğlum. Onlar gəlib çatanda nənəm və körpəsi artıq can verirmişdilər. Nənəmi işgəncə ilə qətlə yetirmişdilər. Bibimsə...(hönkürür) Bibiminsə qulaqlarını kəsmişdilər..."

Nənəm kövrələrək sözünə davam etdi:

– Babam bu hadisəni görəndən sonra aynalısını götürüb, kəndin meydanında hayqırırmış ki, kişi olan bu işi tutmaz. Nankorlar, çıxın qarşıma. Elə həmin günlərdə qonşu kəndlərdə yaşayanlar birləşib özünümüdafiə hissələri yaratmışdılar. Üçüncü Kalbalı xanın başçılığı ilə 500 nəfərdən ibarət süvari dəstə ermənilərin qova-qova kəndimizə çatanda babam da onlara qoşulub.

Nənəm onu da qeyd etdi ki, ermənilərin başımıza gətirdiyi bu müsibətlər bununla bitmir. Mən ailə qurandan sonra əzəli torpaqlarımız olan Qərbi Azərbaycanda, Gülüstan kəndində yaşayırdım. Xəbis niyyətlərindən əl çəkməyən erməni daşnakları müharibədən sonra Qərbi Azərbaycan ərazisindən azərbaycanlıların deportasiyasına nail oldular. 1988-ci ildə indiki Ermənistan ərazisindən, azərbaycanlıların tarixən yaşadıqları ata-baba yurdlarından zorla çıxarıldıq. Ancaq düz deyiblər ki, hər qaranlıq gecənin bir işıqlı gündüzü var. Son vaxtlar ordumuzun işğal altında olan torpaqlarımızı geri qaytarması, Aprel döyüşləri, Günnüt zəfəri bizim yurd həsrətimizi böyük bir inama çevirib. Gec-tez qisasımız alınacaq və yurd, doğma el-oba həsrəti tamamilə sona çatacaqdır.

Nənəmin mənə dediklərindən çıxardığımız nəticə budur ki, gəncliyin üzərinə böyük vəzifə düşür. Vətənpərvər, bilikli, dünyagörüşlü bir vətəndaş kimi yaşanmış bu hadisələri unutmamaq və unutdurmamaq. Yaşanan bütün bu hadisələr bizim qan yaddaşımızdır.

**Pərviz HACILI**

## Tədbir keçirilib

*Naxçıvan Şəhər Təsərrüfathesablı Nəqliyyat İdarəsində şəhərdaxili nəqliyyatda sərnişindaşıma xidməti göstərən sürücülərin, dispetçerlərin və xətt nəzarətçilərinin iştirakı ilə payız-qış mövsümünün yekunu və qarşıda duran vəzifələrlə bağlı iclas keçirilib.*



Tədbiri Dövlət Nəqliyyat Xidməti rəisinin müavini Anar Babayev açaraq muxtar respublikamızda avtonəqliyyat infrastrukturunun inkişafı istiqamətində həyata keçirilən ardıcıl tədbirlərdən bəhs edib.

Qeyd olunub ki, muxtar respublikanın ucqar dağ kəndlərinə rahat asfalt yolların salınması, yol-nəqliyyat infrastrukturunun yenilənməsi, Naxçıvan, Şərur, Ordubad, Culfa və Şahbuz şəhərlərində müasir avtovağzal komplekslərinin inşa olunması avtonəqliyyat xidməti sahəsinin yaxşılaşdırılmasına öz töhfəsini verib. Ötən müddət ərzində daxili sərnişindaşıma ilə yanaşı, beynəlxalq əməkdaşlığın inkişafı da diqqətdə saxlanılıb.

Tədbirdə Naxçıvan Şəhər Təsərrüfathesablı Nəqliyyat İdarəsinin rəisi İlkin Məmmədov çıxış edərək ötən illərdə olduğu kimi, cari ildə də sərnişinlərə daha yüksək səviyyədə nəqliyyat xidməti göstərilməsi məqsədilə şəhərdaxili marşrut avtobuslarının və mikroavtobusların fəaliyyəti üçün müəssisədə yaradılan şərait barədə məlumat verib.

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin İctimai Təhlükəsizlik İdarəsinin rəisi, polis polkovniki Əlşərəf İbrahimov çıxışında piyada keçidlərindən düzgün istifadə edilməsi, bu zaman piyadaların məsuliyyəti, sürücülərin üzərinə düşən vəzifələr və digər məsələlər barədə danışıb.

**Nail ƏSGƏROV**

# Şahmat üzrə növbəti interaktiv dərs



İntellektual idman növü kimi şahmatın inkişafına muxtar respublikamızda ciddi diqqət yetirilir. Bu məqsədlə şəhər və rayonlarda şahmat məktəbləri tikilərək istifadəyə verilib, həmin məktəblərin maddi-texniki bazası gücləndirilib. Eyni zamanda müasir informasiya-kommunikasiya texnologiyaları ilə təmin olunmuş şahmat məktəblərində interaktiv dərslərin təşkili üçün hər cür şərait yaradılıb.

2018-ci il dekabrın 10-da Naxçıvan Muxtar Respublikasının Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında" keçirilmiş müşavirədə verilmiş tapşırıqların icrasının təmin olunması, ümumtəhsil məktəblərində şahmat dərslərinin tədrisi səviyyəsinin artırılması, uşaq-gənclər şahmat məktəblərinin fəaliyyətinin gücləndirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Təhsil Nazirliyi Şahmat Federasiyası ilə birlikdə mütəmadi olaraq şahmat məşğələləri də təşkil edir.

Həmin tədbirlərin davamı olaraq martın 28-də Naxçıvan şəhərində Şahmat Mərkəzində "Qambitlərin izahlı təhlili" mövzusunda növbəti interaktiv dərs keçilib. Dərsi beynəlxalq dərəcəli hakim Emin Hacıyev aparıb. Qeyd olunub ki, qambit piyada qurban verməklə oyunda üstün vəziyyətin yaradılmasıdır. Daha sonra "EVANS" qambiti haqqında şagirdlərə geniş məlumat verilib.



*Heydər Əliyev adına tam orta məktəb*



*Babək Rayon Şahmat Məktəbi*

İnteraktiv şahmat məşğələsi saat $11^{00}$-da ümumtəhsil məktəblərinin şagirdləri, $12^{00}$-da isə həmin məktəblərdə şahmat fənnini tədris edən müəllimlər üçün keçirilib. Bununla yanaşı, saat $15^{00}$-da rayon şahmat məktəbləri üçün təşkil edilən interaktiv dərsdə muxtar respublika şahmatçılarının oyunları təhlil olunub.

İnteraktiv dərs 200-dən artıq təhsil müəssisəsində şagird və müəllimlər, şahmat məktəblərində isə 200-dən çox şahmatçı tərəfindən elektron lövhə vasitəsilə izlənilib. İnteraktiv dərs zamanı şahmatçıları maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

*Xalq təqvimi*

# Erkən yazın təbiət şıltaqlıqları ilə bağlı inanclar

***Xalq təqvimi ilə bağlı aparılan tədqiqatlardan bəlli olur ki, bir sıra dünya xalqları qədim zamanlardan baharın gəlişini bayram edib, bu mərasimdə od, tonqal yandırma adətlərindən də geniş istifadə olunub. Ata-babalarımız baharın gəlişini, gecə və gündüzün bərabərləşməsini təsərrüfat işlərinin başlanması kimi qeyd ediblər.***



Azərbaycanda çox təntənəli keçirilən axır çərşənbədə (ilaxırda) od qalamaqla yanaşı, uşaqlar tərəfindən lopalar hazırlanar, onlar bəhsə girərək yandırılmış lopanı kimin daha yüksəyə atacağını sınaşardılar. Yaztarla işləri "Novruz topu"nun atılması ilə başlayardı. Qeyd edək ki, martın 21-də yazın girməsinə baxmayaraq, havalar şıltaqlıq edir, bəzən qar yağır, bir neçə gün soyuq olur. Bu zaman istər heyvandarlıqda, istərsə də əkinçilikdə çətinliklər yaranır. Baharın ilk ayı "qara yaz" adlanır. Bu dövrdə qış azuqəsi tükənir. Çöldə heyvanın otlaması üçün otələf olmur. Xalq tərəfindən Qara yazın özü də bir neçə yerə bölünüb və onlara müxtəlif adlar verilib. Bəzi yerlərdə martın 6-dan aprelin 6-na kimi olan dövrə "murdar üşüyən ay" da deyirlər.

Aprel ayının 15-nə kimi olan dövrə "qarının borcu", "qarının mərdi" deyirlər. Rəvayətə görə, mart ayında havanın qərarsız olması, çöldə heyvanların yeyəcək tapa bilməməsindən narahat olan qarı martın çıxmasına sevinir. Sevinci yerə-göyə sığmayan qarı martın arxasınca deyinir:

*Əldən aldın yorğanım,*
*Dərdə düşdü oğlağım.*
*Borca getdim samana.*
*Pislik qaldı yamana.*
*Mart, gözüvə barmağım,*
*Yaza çıxdı oğlağım.*

Bunu eşidən mart hirslənir, apreldən 15 gün borc istəyir. Aprelin 15-nə kimi havalar yenidən soyuyur, qar yağır. Təbiəti uzun illər müşahidə edən babalarımız "qara yaz" çıxana kimi ehtiyatlarını üzməz, ev üçün yanacaq, mal-heyvan üçün isə yem ehtiyatı saxlardılar. Atalarımız deyiblər ki, bu dövr üçün 40 şələ odun, 40 çuval saman saxlamaq lazımdır.

Aprelin 10-15-nə qədər soyuqların tam sovuşmadığı dövr xalq tərəfindən "kərnəbut" (kərnəvurt) da adlandırılıb. El arasında deyirlər ki, bu vaxta qədər Naxçıvanda basdırılmış üzüm və narın üstünü açmazlar. Bəziləri kərnəbutun Novruzdan 10 gün, bəziləri isə 15 gün keçmiş olduğunu deyirlər. Yaşlı sakinlərin sözlərinə görə, xalq arasında aprelin 5-7-nə kimi olan dövrə "camışqıran" da deyiblər. Belə bir məsəl vardır ki, qorx aprelin (nisan) beşindən, öküzü qoyar işindən.

Uzun illərin müşahidəsinə əsasən aprel ayının 5-i və ona yaxın günlərdə havanın dəyişkən keçdiyinin, temperaturun aşağı düşdüyünün şahidi oluruq. Belə ehtimal etmək olar ki, "kərnəbut" və "camışqıran" xalq təqvimləri eyni dövrləri əhatə edib, Novruz bayramından 15 gün keçən vaxta düşür.

Ata-babalarımız fenoloji müşahidələrə əsasən bu dövrdə yağan qar, yağış, doluya da müəyyən adlar qoymuşlar. Yazın girməsi ilə əlaqədar köçəri quşlar isti ölkələrdən qayıtmağa başlayır. Yazın ilk günləri sığırçınlar gəlir, bu vaxt qar əriyir, havalar istiləşir, lakin axşamlar su donur. Xalq arasında hacıleyləyin gəlməsinə xüsusi diqqət yetirilir. Leyləyin gəlişi azərbaycanlılar arasında sevincə səbəb olurdu. Keçmişdə ilk dəfə leyləyi görən uşaqlar ata-analarına muştuluğa qaçardılar. Ata-analar uşaqların muştuluğunu verdikdən sonra "Leyləyin ağzında nə gördüz?" – deyə soruşardılar. Əgər leyləyin ağzında sünbül, ot olduğunu desələr, ilin məhsuldar olacağı, "sümük, çöp gördük" desəydilər, ilin quraq keçəcəyi güman edilirdi. Xalq arasında belə inam formalaşıb ki, leylək gələn gün az da olsa, qar yağmalıdır. Ona görə Novruzdan sonra yağan qara "leylək qarı" deyərlər. Bir də belə bir deyim vardır ki, "leyləyin yumurtasının üstünə qar yağmazsa, bala çıxarmaz".

Xalq təqviminə görə, martın yeddisi ilə aprel ayının yeddisi arasında əsən küləklər "boz külək" adlanır. Bəzən hava quraqlıq keçməklə yanaşı, rütubətsiz, isti quru küləklər də əsir. Bu isə "qara yel" adlanır. Mirzə Ələkbər Sabir də "Əkinçi" satirasında "Əsdi qara yel, çəltiyə, bostana, nə borcum" yazmışdır.

Bəzən erkən yazda mülayim, isti küləklər əsir. Bu isə ağacların tumurcuqlarının açılmasına səbəb olur. Bu cür küləyə "tumurcuq açan" külək deyilir. Yazda yarıqar, yarıdolu formalı yağıntı düşür ki, buna "çoban yarması" deyirlər. Bəzən günəşli havada qısamüddətli yağış yağır. Buna isə "tülkü toyu", "qurd quzulaması" deyilir.

Yazda təbiətlə bağlı digər inanclar da mövcuddur. İnama görə, göy guruldamasa, çöldə bitən pencərləri yemək düzgün deyildir. Axır çərşənbədə oynanılan "kodu", "qodu-qodu" mərasimi oyun olmayıb, digər vaxtlarda yağış və ya Günəşi çağırmaq üçün keçirilən mərasimdir. Bundan başqa, inanca görə, il quraqlıq keçəndə qırx keçəlin adı tutulub, ipə qırx düyün vurularaq suya atılardı. Digər bir inanca görə, bu dövrdə ulağın başını yuduqda yağış yağar. Çox yağış yağdıqda isə palçıqdan kökə düzəldib təndirə yapardılar ki, yağış kəssin.

*Bütün bunlarla yanaşı, rəncbər babalarımız, xüsusən Naxçıvan ərazisində ilin bolluğunun, xeyir-bərəkətinin bu aya bağlı olduğunu çox gözəl bilirdilər. Bu mövsümdə dağlarda su ehtiyatı olan qarın əriməsi, su anbarlarımızda su toplanması bulaqların sulu, dağ-dərədə otun bolluğundan xəbər verir.*

**Zaleh NOVRUZOV**

# Beynəlxalq İncəsənət festival-müsabiqəsinin qalibləri ilə görüş





*Martın 28-də Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova Naxçıvan Musiqi Kollecində "Testene ART Baku" III Beynəlxalq İncəsənət festival-müsabiqəsinin qalibləri ilə görüşüb.*

Nazir tədbirdə çıxış edərək bildirib ki, ali musiqi məktəbləri üçün əsas baza rolunu oynayan Naxçıvan Musiqi Kollecinin muxtar respublikada mədəniyyətin inkişafında və orta ixtisaslı musiqiçi kadrların hazırlanmasında rolu böyükdür.

Musiqi Kollecinin qazandığı uğurdan bəhs edən Natəvan Qədimova diqqətə çatdırıb ki, Novruz bayramı ərəfəsində Naxçıvan Musiqi Kollecinin tələbələrinin uğuru hamımızı sevindirdi. Kollec mart ayının 13-dən 17-dək Bakı şəhərində keçirilən "Testene ART Baku" III Beynəlxalq İncəsənət festival-müsabiqəsində iştirak edib və öz uğurlu çıxışları ilə seçilərək festival-müsabiqənin qalibi olublar. Qeyd etmək lazımdır ki, bir sıra nominasiyalar üzrə təşkil edilmiş festival-müsabiqənin münsiflər heyətinin tərkibində Azərbaycanla yanaşı, Rusiya, Litva, İsrail və İtaliyadan olan nüfuzlu və tanınmış sənət adamları da yer almışdı.

Bildirilib ki, müxtəlif ölkələrdən 180-ə yaxın iştirakçının qatıldığı müsabiqədə Naxçıvan Musiqi Kollecindən 10 nəfər – 9 tələbə və 1 müəllim olmaqla, instrumental ifaçılıq və xalq çalğı alətləri nominasiyaları üzrə iştirak ediblər. Kollecin nağara ixtisası üzrə IV kurs tələbəsi Nəcəf Hacılı müsabiqənin Qran-pri mükafatına layiq görülüb. Qanun ixtisası üzrə kollecin müəllimi Sevinc Babayeva və tar ixtisası üzrə kollecin IV kurs tələbəsi Məmməd Məmmədli I, balaban ixtisası üzrə III kurs tələbəsi Sərxan Əliyev, qanun ixtisası üzrə III kurs tələbəsi İnci Bağırlı, tar ixtisası üzrə III kurs tələbəsi Murad Behbudov və skripka ixtisası üzrə III kurs tələbəsi Rauf Bünyatzadə II, fortepiano ixtisası üzrə III kurs tələbəsi Arzu Abbasova III yerin qalibləri olublar. Fortepiano ixtisası üzrə III kurs tələbələri Lamiyə Quliyeva və Nilufər Əliyeva diplomla təltif ediliblər.

Nazir qazanılan böyük uğur münasibətilə Naxçıvan Musiqi Kollecinin müəllimlərini və tələbələrini təbrik edib və onlara gələcəkdə daha böyük nailiyyətlər arzulayıb.

Tədbirdə müsabiqənin qalibləri və onların müəllimlərinə hədiyyələr təqdim edilib.

Naxçıvan Musiqi Kollecinin tələbələri adından çıxış edən kollecin nağara ixtisası üzrə IV kurs tələbəsi, müsabiqənin Qran-pri mükafatçısı Nəcəf Hacılı yaradılan şəraitə, yüksək tədris səviyyəsinə görə muxtar respublika rəhbərinə minnətdarlığını bildirib.

Sonda müsabiqə qaliblərinin iştirakı ilə konsert olub. Konsertdə Azərbaycan və dünya bəstəkarlarının ifa olunan müxtəlif musiqi əsərləri alqışlarla qarşılanıb.

**Əli RZAYEV**

# Amerikalı mütəxəssislər "Naxçıvan" Universitetində treninq keçiblər



Amerika Birləşmiş Ştatlarından gələn mütəxəssislər Jack Morrisin və İan Bernetinin iştirakı ilə "Naxçıvan" Universitetində "Təhsildə keyfiyyətə nəzarət sistemlərinin inkişaf etdirilməsi" mövzusunda keçirilən treninq maraqla qarşılanıb.

Ali təhsil ocağının Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rəcəb Cəfərli çıxış edərək treninqin keçirilməsində məqsədin keyfiyyətə nəzarət mexanizminin və mərkəzlərinin yaradılması, həmçinin inkişaf etdirilməsi yolları barədə müasir metodların tətbiqi üsullarının öyrənilməsidir. Həmçinin universitet heyətinin şöbə və onun funksiyası haqqında məlumatlandırılması, onlayn platformanın yaradılması da qarşıya qoyulan əsas məqsədlərdəndir.

Vurğulanıb ki, universitetin Boloniya prosesinə qoşulması və çoxpilləli təhsil sisteminə keçilməsi ilə əlaqədar Almaniyanın, ABŞ-ın, Türkiyənin və digər ölkələrin qabaqcıl universitetləri və elmi mərkəzləri ilə sıx əlaqələr qurulub. Qarşılıqlı əməkdaşlıq gündən-günə daha da genişləndirilir. Universitetin əməkdaşları TEMPUS, ERASMUS, COMOLTE kimi ümumavropa təhsil layihələrində fəal iştirak edirlər.

Treninqdə xarici dillərin mənimsənilməsi zamanı yaranan problemlər və dil öyrənilməsinin asanlaşdırılması qaydaları da müzakirə edilib.

**Seyfur HACIMURADOV**


# Elan

Naxçıvan Qızlar Liseyi 2019-2020-ci tədris ili üçün V sinfə şagird qəbulu elan edir. Liseyə qəbul üçün aşağıdakı sənədlər tələb olunur:

*1. Şəxsiyyət vəsiqəsinin surəti*
*2. 3x4 santimetr ölçüdə 2 ədəd fotoşəkil*
*3. Valideynin ərizəsi*
*4. Təhsil aldığı məktəbdən arayış.*

Sənədlər 1 aprel 2019-cu il tarixdən 30 aprel 2019-cu il tarixədək saat $9^{00}$-dan $18^{00}$-dək Naxçıvan Qızlar Liseyinin tədris korpusunda qəbul edilir.

İmtahan 25 may 2019-cu il tarixdə saat $10^{00}$-da Naxçıvan Dövlət Texniki Kollecinin binasında keçiriləcəkdir.

İmtahana buraxılış vərəqələrini 10 may 2019-cu il tarixdən 17 may 2019-cu il tarixədək Naxçıvan Qızlar Liseyindən əldə edə bilərsiniz.

**Qeyd:** Liseyə qəbul olmaq istəyən şagirdlər Azərbaycan dili, riyaziyyat və ingilis dilindən imtahan verəcəklər.

***Ünvan: Qızlar Liseyi, İ.Məmmədov küçəsi 2***
***Əlaqə nömrələri: (036) 545-03-47***
***(036) 545-23-62***

***İtmişdir***

Naxçıvan şəhəri, H.Cavid küçəsi $18^{A}$ da yaşayan Əliyev Rahib Rəhim oğlunun adına olan $334^{A}$ inventar nömrəli texniki pasport və MH-0001478 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 223